


# Eksponatlar yol üstədir

Oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, bu ocaqda uzun illərdir ki, başqa bir muzeyin də eksponatları qorunub saxlanılır. Bunlar 1992-ci ildə Şuşanın işğalından bir ay əvvəl Hacıbəylilər ailəsinin Şuşadakı ev-muzeyindən Bakıya köçürülüb gətirilmiş eksponatlardır. Əşyaları həmin dövrdə bəstəkarın Şuşadakı ev-muzeyinin direktoru Nəsibə İsmayılova (Eyvazova) Bakıya gətirməyə müvəffəq olmuşdur. 28 ildir ki, bu əşyalar da bizim muzeyimizdə göz bəbəyi kimi qorunub saxlanılır. Eksponatların içində bəstəkarın skripkası, yazı ləvazimatı, eynəyi, kostyumu, paltosu, qaragül dərili uşaqlıq papağı, ailə albomu, ailəyə məxsus toxucu aləti daha nələr, nələr vardır...

Burada vaxtilə Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyinə avtoqrafla hədiyyə edilmiş kitablar qorunur. Müxtəlif illərdə Şuşadakı ev-muzeyinə təqdim olunmuş bu kitablarda Süleyman Ələsgərovun, Səid Rüstəmovun, Elmira Abbasovanın, Firudin Şuşinskinin, Hökümə Nəcəfovanın və başqalarının imzalarına rast gəlmək olar.

Əşyalar arasında şüşə qabın içində saxlanılan bir ovuc torpaq tamaşaçıların hər zaman ürəyini riqqətə gətirmişdir. Bu, Üzeyir Hacıbəylinin ev-muzeyinin həyətindən gətirilmiş Şuşa torpağıdır. O torpaq ki, muzeyə ziyarətə gələn neçə-neçə Şuşalı bu şüşə qaba əllərini sürtərək Şuşa həsrətlərini sanki bu yolla ovutmaq istəmişlər.

Bu gün isə 30 il doğma yurdundan ayrı düşmüş bu eksponatlar yol üstədir. Tezliklə onlar Şuşadakı ev-muzeyinə qovuşacaqlar. İnanırıq ki, dahi bəstəkarımızın Şuşadakı ev-muzeyi yeniləşərək daha zəngin, dünya standartlarına cavab verən möhtəşəm bir muzey olacaqdır. O gün çox uzaqda deyildir. O günü bizə şanlı Azərbaycan ordusu bəxş elədi!

Azərbaycanın görkəmli şairi Süleyman Rüstəmin aşağıdakı misraları sanki Azərbaycanın bugünkü möhtəşəm zəfərinə həsr olunub:

Alqış, yenə alqış!

*Alqış, Qarabağ, səndəki bu qüdrətə alqış,*
*Tarix boyu alnındakı ülviyyətə alqış!*
*Oğlun da, qızın da dağı dağ üstə qoyurlar,*
*Onlardakı bu sevgiyə, bu zəhmətə alqış!*
*Sən şöhrəti dildən-dilə düşmüş Üzeyir tək*
*Övlad yetiribsən, belə bir şöhrətə alqış!*

*Ustad Üzeyir! Dinlə məni bu xoş günündə,*
*Alqış, sənə ilham verən hürriyyətə alqış!*
*Sönməz həvəsin nəğmələrin nəğməsi oldu,*
*Nəbzindəki dostluqla vuran sənətə alqış!*
*Yol açdı səninçün Şuşamız kürreyi-ərzə,*
*Alqış ulu xalqındakı bu qeyrətə alqış!*
*Təkrar, yenə alqış yenə alqış deyirəm mən*
*Dahi Üzeyir bəy yetirən millətə alqış!*









Gülnarə ƏLƏSGƏROVA
Üzeyir Hacıbəylinin ev-muzeyinin
ekspozisiya və
kütləvi işlər şöbəsinin müdiri